# AZƏRBAYCAN SİLAHLI QÜVVƏLƏRİNİN TARİXİ

## Cümhuriyyəti dövrü (1918–1920)

28 may 1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından sonra ən əsas vəzifələrdən biri Azərbaycan Silahlı Qüvvələrinin formalaşması idi. Milli Silahlı Qüvvələrin yaradılması üçün ilk cəhdlər isə hələ 1917-ci ilin sonunda və 1918-ci ilin əvvəllərində edilmişdi. Milli Şuranın 28 may 1918-ci il tarixli qərarına əsasən, Fətəli Xan Xoyskinin sədrliyi ilə yaradılmış birinci hökumətin tərkibində təsis edilmiş Hərbiyyə naziri vəzifəsinə Xosrov bəy Sultanov təyin edildi. Lakin bu kabinənin buraxılması ilə hərbi nazir vəzifəsi də ləğv edilmiş və Azərbaycanda ordu quruculuğu prosesinə rəhbərlik Hökumətin qərarı ilə Qafqaz İslam Ordusunun komandanı Nuru Paşaya həvalə olunmuşdu. Hökumət strukturunda isə Qafqaz İslam Ordusu komandanlığı ilə əlaqələri nizamlayacaq hərbi işlər üzrə baş müvəkkil vəzifəsi təsis olunmuş İsmayıl xan Ziyadxanov bu vəzifəyə təsdiq edilmişdi. Azərbaycan Hökumətinin 1918-ci il 3 iyul tarixli qərarı ilə 19 yaşı tamam olmuş vətəndaşlar hərbi çağırışın yerinə yetirilməsinə cəlb olunurdular. 1918-ci il iyunun 26-da Hökumətin qərarı ilə Müsəlman korpusu Əlahiddə Azərbaycan korpusu adlandırıldı və onun ştat cədvəlində qismən dəyişiklik edildi. General-leytenant Əliağa Şıxlinski korpusun komandiri kimi vəzifəsini yenə də davam etdirdi.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1918-ci il 26 iyun tarixli qərarı ilə Çar Rusiyası dövründə "Vəhşi diviziya" (rus. "Дикая дивизия") adlanan keçmiş tatar süvari alayının əsgərlərindən formalaşdırılmış və Müsəlman Korpusunun əsasında ilk ordu hissəsi, 5000 nəfərlik şəxsi heyəti olan "Əlahiddə Azərbaycan korpusu" yaradıldı. İyulun 11-də isə hökumət fərmanı ilə hərbi səfərbərlik elan edildi. 1919-cu ilin sonlarında 25 min nəfərlik Azərbaycan ordusu iki piyada və bir süvari diviziyadan ibarət idi. Hərbi nazirlik 1920-ci ildə ordunun şəxsi heyətini 40 min nəfərə çatdırmağı planlaşdırırdı.

1920-ci il bolşevik işğalı ərəfəsində Azərbaycan ordusunun əsas döyüş hissələri və birləşmələri aşağıdakılar idi: 8 alaydan ibarət iki piyada diviziyası, 3 alaydan ibarət süvari diviziyası və iki topçu briqadası. Bunlardan başqa, ordunun bir sıra yardımçı hissə, bölmə və müəssisələri də var idi. Hər bir piyada alayı 3 tabordan, hər bir tabor isə dörd piyada bölüyündən və bir pulemyot bölüyündən təşkil edilmişdi. Hər pulemyot bölüyünün tərkibində 8 pulemyot var idi. Bundan başqa, hər alayda bir süvari kəşfiyyat bölüyü, bir piyada kəşfiyyat bölüyü, bir istehkam bölüyü, bir rabitə-telefon bölüyü və bir qeyri-nizami bölük var idi. Alayların ştat tərkibi onların hamısında eyni deyildi. Süvari alayları üç süvari bölüyündən, pulemyot bölüyündən, təlim və rabitə komandalarından ibarət idi.

Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti obyektiv çətinliklər üzündən hərbi dəniz qüvvələrinin təşkilinə 1919-cu ilin sonlarında başladı. 1918-ci ilin sentyabrında Bakının Sentrokaspi diktaturası və ingilis müdaxiləçilərindən təmizlənməsi ərəfəsində buradakı əsas hərbi gəmiləri — "Qars", "Ərdəhan" və "Astrabad" Petrovsk-Porta aparılmışdı. 1918-ci ilin noyabrında Bakını zəbt edən ingilis hərbi qüvvələri adları çəkilən gəmiləri geri qaytarsa da, onları Azərbaycan Hökumətinə verməmiş, öz nəzarətində saxlamışdı. Cümhuriyyət Hökuməti bir neçə dəfə həmin gəmilərin Azərbaycana qaytarılması barədə vəsatət qaldırmışdı. Belə ki, Xarici İşlər naziri Məmməd Yusif Cəfərov 1919-cu il avqustun 4-də Bakıdakı müttəfiq qoşunlarının komandanı, ingilis generalı D. Şatelvorta müraciət etmiş, paytaxtın və dəniz sərhədlərinin mühafizəsi, dövlətin ərazi bütövlüyünün qorunması üçün bir neçə hərbi gəmisinin Azərbaycana verilməsini xahiş etmişdi. Xəzərdəki hərbi dəniz qüvvələrinin əsas hissəsi Denikinin tabeliyində olsa da, silahları sökülmüş bəzi hərbi gəmiləri, o cümlədən "Qars",

"Ərdəhan" və "Astrabad" 1919-cu il sentyabrın əvvəllərində Azərbaycan Hökumətinin sərəncamına keçmişdi.

**Azərbaycan Xalq Cümhuriyyəti donanmasına daxil olan Ərdəhan kanoner qayığı**

1919-cu il oktyabrın 1-də "Astrabad" hərbi gəmisinin heyəti təsdiq edildi. Gəminin kapitanı vəzifəsinə azərbaycanlı mütəxəssis Kitabçızadə təyin edildi. "Ərdəhan" gəmisinin komandiri vəzifəsi isə kapitan Həsən Çilingərzadəyə tapşırıldı. Dekabrın 5-də "Qars" və "Ərdəhan" gəmiləri heyətlərinin vəziyyətinin yaxşılaşdırılması üçün xüsusi komissiya yaradıldı. 1920-ci ilin əvvəllərində hərbi dəniz qüvvələrinin tərkibində 8 ədəd 75 mm-lik və 100 mm-lik toplarla təchiz edilmiş "Qars" və "Ərdəhan" hərbi gəmiləri, "Astrabad", "Göytəpə", "Araz", "Nargin" köməkçi gəmiləri, "Orion" nəqliyyat gəmisi, silahlarla təchiz edilmiş "Puşkin" buxar gəmisi və bir neçə kater var idi. 1920-ci ildə xaricdən saatda ən azı 23 dəniz mili sürətlə hərəkət edən 6 ədəd katerin, 47 mm-lik və ya 57 mm-lik topla, 2 ədəd mina qurğusu ilə silahlanmış 12 ədəd katerin, həmçinin sualtı qayıqlarla döyüş üçün nəzərdə tutulmuş, iki topla təchiz edilmiş, saatda 26–36 dəniz mili sürətlə hərəkət edən katerin alınması planlaşdırılmışdı. Düşmən gəmilərinin dənizdən hücumlarının qarşısının alınması üçün mina düzən gəminin, çox da böyük olmayan 6 ədəd sualtı gəminin, mövcud hərbi gəmilərinin döyüş imkanlarını artırmaq üçün müxtəlif çaplı 92 ədəd topun alınması da nəzərdə tutulmuşdu. Lakin Bakı əməliyyatı bu planların həyata keçirilməsinə imkan vermədi.

Hərbi hava qüvvələrinin təşkilinin zəruriliyini nəzərə almış, hərbi nazirlik bu işə ən əvvəl müvafiq kadrlar hazırlanmasından başlamışdı. Hərbi nazir Səməd bəy Mehmandarov 1919-cu il yanvarın 22-də Azərbaycanın Gürcüstandakı nümayəndəsi Məmməd Yusif Cəfərova məktubla müraciət etmiş, azərbaycanlıların Tiflisdəki Aviasiya məktəbinə göndərilməsinin mümkünlüyünü öyrənməsini xahiş etmişdi. Azərbaycan-Gürcüstan hərbi əməkdaşlıq müqaviləsi (1919) bağlandıqdan sonra Azərbaycandan bir qrup əsgər və zabit Gürcüstana ezam olundu.Onlardan 9 nəfəri hərbi təyyarəçi peşəsinə yiyələnməli idi. Kapitan Firidun Mirzə Qacar, praporşiklər Əlihüseyn Dadaşov, Teymur Mustafayev, Gəncinski, Həsənzadə və Qaraşarov həmin zabitlərdən idi. Milli ordunun hərbi hava strukturunun formalaşdırılmasından əvvəl onun rəhbərliyi müəyyənləşdirildi. Hərbi nazirin 1919-cu il 19 avqust tarixli əmri ilə podporuçik Teymur xan Əfşar Aviasiya dəstəsinin rəis müavini təyin edildi. Dəstə birbaşa Baş ərkani-hərbə tabe idi. 1919-cu il sentyabrın 14-də Aviasiya dəstəsinin ştatı təsdiq olundu. Ştatda 5 zabit, 4 məmur, 54 nizami əsgər və 4 qeyri-nizami əsgər var idi.

Milli kadrlara olan ehtiyacın ödənilməsi üçün hərbi nazirlik 1920-ci ildə Azərbaycanda hərbi təyyarəçilər məktəbi açmağı qərara aldı. Hərbi nazir Səməd bəy Mehmandarov 1919-cu il noyabrın 27-də Xarici İşlər Nazirliyinə məktub yazmış, Aviasiya məktəbində tədrisin təşkili üçün İngiltərədən və İtaliyadan təcrübəli mütəxəssislərin dəvət olunması imkanlarının öyrənilməsini xahiş etmişdi. Lakin 1920-ci ilin əvvəlindən hərbi şəraitin mürəkkəbləşməsi və Aprel işğalı (1920) hərbi hava qüvvələrinin möhkəmləndirilməsi sahəsindəki işləri yarımçıq qoydu.

**Azərbaycan SSR (1920–1991)**

1920-ci ildə Azərbaycan Rusiya Sovet Federativ Sosialist Respublikası tərəfindən işğal edildikdən sonra Azərbaycanın hərbi nazirliyi rəsmən ləğv edilərək, həmin funksiya Xalq Hərbi Komissarlığına verilmiş, Azərbaycan ordusunun 21 generalından 15-i bolşeviklər tərəfindən güllələnmişdi. İkinci Dünya müharibəsindən sonrakı dövrdən 1969-cu ilədək Azərbaycanda hərbi kadr hazırlığına Sovet İttifaq rəhbərliyi yenə də qısqanc münasibət bəsləyirdi. 1971-ci ildə böyük səylər nəticəsində Azərbaycanda hərbi kadrlar hazırlayan məktəb olan Cəmşid Naxçıvanski adına hərbi lisey yarandı. Azərbaycan siyasətçilərinin sayəsində azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş

Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul olunması da mümkün olmuşdu.

**İkinci Dünya müharibəsi (1941–1945)**

İkinci Dünya müharibəsində Azərbaycandan 700 min nəfərdən çox insan səfərbər edilərək ordu sıralarına yola düşmüş, onların 300 mindən çoxu döyüşlərdə həlak olmuşdur. Müharibənin hələ ilk günlərində respublikada 4 mindən çox oğlan və qız könüllü surətdə cəbhəyə getmək üçün hərbi komissarlıqlara müraciət etmişdi. 1941-ci ilin sonunda xalq qoşunu dəstələrində 187 min nəfər döyüşçü vardı. Onlardan 30 min nəfərdən çoxu qadınlar idi. Müharibədə hətta azərbaycanlılardan ibarət diviziyalar təşkil olunmuşdu. 416-cı, 402-ci, 396-cı, 223-cü, 77-ci və digər milli diviziyalar Simferopolda, Odessada və digər şəhərlərdə vuruşmuşlar. 77-ci diviziya Polşa və Çexoslovakiyanın, 223-cü diviziya Yuqoslaviyanın azad edilməsində igidlik göstərmişdi. 416-cı diviziya Qafqazdan Berlinədək qəhrəmanlıq yolu keçmişdi. İkinci Dünya müharibəsi zamanı göstərdikləri igidliyə görə Azərbaycandan 123 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabit müxtəlif orden və medallarla təltif edilib.

**Azərbaycan Respublikası (1991–)**

1991-ci il oktyabrın 9-da Milli Ordunun yaranması haqqında Azərbaycan Respublikasının Ali Soveti qanun qəbul etdi. Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün — 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü kimi elan edilmişdir. Hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

**Qarabağ müharibəsi (1988–1994)**

Qarabağ müharibəsi zamanı Azərbaycan hökuməti hərbi qulluğa çağırışı həyata keçirirdi və Sovet İttifaqı dağılandan sonra, çox azərbaycanlılar həvəslə ilk aylarıda döyüş üçün hərbi qulluğa daxil olurdu. Azərbaycanın Milli Ordusu təxminən 30,000 kişidən, 10,000-ə yaxın OMON-dan və Azərbaycan Xalq Cəbhəsinin bir neçə min könüllüsündən ibarət idi. Azərbaycanlı hərbçi Surət Hüseynovun Azərbaycan Ordusunun 709 saylı hərbi hissəsi yaratmışdı və 23-cü motor piyada diviziyasının arsenalından çox silah və nəqliyyat vasitələri almışdır. İsgəndər Həmidovun "Bozqurd" briqadası da fəaliyyət göstərirdi.

Qarabağ müharibəsi zamanı Azərbaycan 388–395 ədəd artilleriya, 436–458 ədəd tank, 558–1264 ədəd zirehli personal daşıyıcı, 389–480 ədəd zirehli döyüş nəqliyyat vasitəsi, 63–170 ədəd döyüş təyyarəsi və 45–51 helikopter istifadə etmişdir. Ümumi hərbi müqayisədə, 17–32 yaş qrupunda, Ermənistanda hərbi xidmət üçün uyğun kişilərin sayı — 550 000, Azərbaycanda isə 1,3 mln təşkil edirdi. Hər iki tərəfdən kişilərin əksəri Sovet ordusunda xidmət etmişdi və münaqişəndən əvvəl hərbi təcrübəyə sahib idi, o cümlədən SSRİ-Əfqanıstan müharibəsində xidmətdə olmuşdular. Qarabağ ermənilərin təxminən 60%-i Sovet ordusunda xidmət etmişdir. Lakin əksər azərbaycanlılar Sovet ordusunda onların xidmət zamanı tez-tez ayrı-seçkiliyə məruz qaldığından, döyüş korpuslarından daha çox tikinti batalyonlarda işləmək məcburiyyətində qalmışdı. Azərbaycanda dəniz məktəbi, o cümlədən iki zabit akademiyalarının yaradılmasına baxmayaraq, əsgərlərin hərbi təcrübə olmaması, Azərbaycanın müharibəyə hazır olmamasının əsas amillərindən biri idi. Azərbaycan ordusuna Əfqanıstan komandiri Gülbəddin Hikmətyar tərəfindən yardım edilirdi.

Qarabağda aerial müharibə əsasən qırıcı və hücum vertolyotlarından ibarət idi. Azərbaycan Hərbi Hava Qüvvələri 45 qırıcıdan ibarət idi və çox vaxt keçmiş Sovet hərbi təcrübəli Rusiya və Ukrayna muzdlular tərəfindən idarə olunurdu. Onlar MiQ-25 və Su-24 kimi inkişaf etmiş təyyarələr və MiQ-21

kimi köhnə nəsil Sovet qırıcı bombardmançılar ilə Qarabağa uçurdular. Ermənilərin müdafiə sisteminin quraşdırılması Azərbaycanın daha çox hava hücum qabiliyyətinə ciddi mane olurdu. Azərbaycan və Ermənistanın ən çox istifadə edilən döyüş vertolyotu — Sovet istehsalı Mil Mi-24 Krokodil idi.

1991–1994-cü illərdə Qarabağda və dövlət sərhədində baş vermiş döyüş əməliyyatlarında 11.557 Azərbaycan hərbçisi şəhid olub. Ən çoxsaylı itkilər 1992–1994-cü illərdə davam edən hərbi əməliyyatlar zamanı baş verib. Erməni qüvvələrinin əsas itkiləri Azərbaycan ordusunun 1992-ci ilin yayında həyata keçirdiyi uğurlu hücum əməliyyatları zamanı qeydə alınıb. Azərbaycan ordusunun itkiləri isə əsasən Ağdam döyüşlərində, habelə 1994-cü ilin qış-yaz aylarında Kəlbəcəri geri almaq üçün təşkil edilmiş hücum əməliyyatlarında baş verib.

## XXI əsr

2016-cı il aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq-Qarabağ Respublikasının hərbi birləşmələri arasında baş vermiş Aprel döyüşləri, Dağlıq Qarabağda 1994-cü ildə atəşkəs haqqında saziş imzalandıqdan bəri ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmiş, Tərtər rayonunun Talış kəndi ətrafındakı yüksəkliklər və Seysulan kəndi, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı, Goranboy rayonunun Gülüstan kəndi, Tərtər rayonunun Qazaxlar kəndi və Tərtər rayonunun Madaqiz kəndi istiqamətində yollar düşməndən azad olunmuşdur.

2017-ci ildə "Global Firepower" təşkilatının yekunlarına əsasən, Azərbaycan Silahlı Qüvvələri "dünyanın ən güclü ordusu" reytinqində 58-ci yerdə qərarlaşıb. Azərbaycan Hərbi Hava Qüvvələrinin sərəncamında 18 qırıcı, 29 hücum, 83 nəqliyyat, 19 təlim təyyarəsi və 93 helikopter (onlardan 17-si hücum helikopteridir), Azərbaycan Hərbi Dəniz Qüvvələrinin sərəncamında 13 patrul və sahil gəmiləri, 7 mina tralçısı, 4 submarinası, 1 freqat tipli gəmisi, Silahlı Qüvvələrin silahlanmasında isə 520 tank, 1590 zirehli texnika, 359 artilleriya qurğusu, 191 reaktiv yaylım atəşi sistemi var. Azərbaycan ordusunda xidmət göstərənlərin sayı 374 500 nəfərdir, səfərbərlik zamanı isə 3 750 000 nəfər hərbi xidmətə çağırıla bilər.

2018-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi ilə əlaqədar Bakının Azadlıq meydanında hərbi parad keçirilib. Mərasimdə 240-dan çox hərbi texnika, 70-dən artıq uçuş vasitəsi, o cümlədən silahlanmaya yeni qəbul edilmiş ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub. Paradda həmçinin Türkiyə, Pakistan, Belarus, Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri, Gürcüstan, İran, İsrail, Qazaxıstan, Özbəkistan, Rusiya, Səudiyyə Ərəbistanı və Ukraynadan olan 100-dək nümayəndə iştirak edib.

2018-ci il sentyabrın 15-də Bakı şəhərində azad edilməsinin 100 illiyinə həsr olunmuş parad keçirilib. Paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və birinci xanım Mehriban Əliyeva paradda ediblər. Dövlət başçılarının çıxışlarından sonra Bakı Qarnizonunun şəxsi heyətinin təntənəli keçidi baş tutub. Tədbirdə Türkiyə Silahlı Qüvvələrinin "Mehtəran" birliyi "Mehtər marşı"nın sədaları altında Azadlıq meydanına daxil olub. "Mehtəran" birliyi tribuna ilə üz-üzə dayanaraq "Əsgər marşı"nı ifa edib. Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin hərbi qulluqçuları Osmanlı Türkiyəsi və Azərbaycanın milli hərbi qüvvələri əsasında təşkil edilmiş Qafqaz İslam Ordusunun süvari və piyadalarının qiyafəsində, hər iki ölkənin dövlət bayraqları altında tribuna önündən keçiblər.

## İkinci Qarabağ müharibəsi (2020)

İkinci Qarabağ müharibəsində Azərbaycan Silahlı Qüvvələri 4 oktyabrda Cəbrayıl, 17 oktyabrda Füzuli, 20 oktyabrda Zəngilan, 25 oktyabrda Qubadlı və 8 noyabrda Şuşa şəhərini işğaldan azad edilmişdir. Müharibədə Azərbaycan Silahlı Qüvvələrinin 2907 nəfər hərbi qulluqçusu həlak olmuş, 7 hərbi qulluqçu isə itkin düşmüşdür.

Bir çox hərbi ekspertlər müharibədə Azərbaycan Silahlı Qüvvələrinin Ermənistana qarşı PUA və ağır artilleriya taktikasını və XXI əsr üslubunda müharibə aparılması müsbət dəyərləndiriblər. Honkonqda yayımlanan "South China Morning Post" qəzeti qeyd edir ki, "Ermənistan tərəfinin tankları, zirehli texnikaları, radar sistemləri və səngərləri Azərbaycanın hərbi dronları üçün ov oldular. 2020-ci il dekabr ayında Böyük Britaniya müdafiə naziri Ben Uollis qeyd edib ki, İkinci Qarabağ müharibəsində Azərbaycanın Ermənistan üzrə qələbəsindən sonra, Böyük Britaniya Silahlı Qüvvələri yeni PUA proqramı yaradacaq. 2021-ci il may ayında ABŞ Silahlı Qüvvələrinin Kiberkomandanlığının rəhbəri və general-leytenant Stiven Foqarti ABŞ kibermüharibənin dəstəklənməsi üzrə ilk taburunun formalaşdırılması zamanı Azərbaycanın İkinci Qarabağ müharibəsindəki təcrübəsini istifadə etməsini qeyd edib.

2021-ci il iyunun 14-də "The Times" qəzetində Almaniya Silahlı Qüvvələrinin hərbi strategiya ekspertinin sözlərinə görə, hipotetik münaqişədə Almaniya dron hücumuna qarşı zəif hazırlıqlı olduğundan, "Azərbaycanla müharibəni uduzardı". Ekspert qeyd edir ki, Almaniyanın böyük, amma ləng, yöndəmsiz və köhnəlmiş elektron döyüş avadanlığı ilə təchiz döyüş qrupları, Azərbaycan kiçik, amma çevik qüvvəsi və dronları üçün asan hədəflərə çevrilə bilərdi.